Belə ki, Dövlət Proqramı çərçivəsində yaradılan, geniş funksionallığı ilə fərqlənən Məlumat və Resurs Mərkəzi ən müasir texnologi standartlara cavab verir. Təhsil Portalının yaradılması üzrə işlərin birinci mərhələsi artıq başa çatıb.

Azərbaycanda indiyədək 20 minə yaxın müəllim təhsildə informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqi üzrə treninqlərdə iştirak edib. "Elektron məktəb" pilot layihəsinə əsasən 20 məktəb nümunəsində informasiya-kommunikasiya texnologiyalarının orta təhsil sistemində sistemli tətbiqi nəzərdə tutulur. Hələlik "Elektron məktəb" layihəsində Bakı və Sumqayıt şəhərlərinin orta təhsil müəssisələri iştirak edir. "Elektron məktəb" layihəsinin reallaşdırılması ilə kompüterlər nəinki informatika dərslərində, həmçinin digər dərslərdə də geniş istifadə ediləcəkdir.